Bülleten No: 24 / dekabr 2014

Elektron Hökumət Portalı

your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

DEKABR 2014

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



SYSTEM CERTIFICATION ISO 9001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# Azərbaycan Beynəlxalq 20-ci "Bakutel-2014" Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgi və Konfransının iştirakçılarına

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində səmimi qəlbdən salamlayır, Azərbaycan Beynəlxalq 20-ci "Bakutel-2014" Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgi və Konfransının işinə müvəffəqiyyətlər arzulayıram.

Son illər gerçəkləşdirilən mühüm layihələr Azərbaycanın dayanıqlı və şaxələnmiş iqtisadi potensialını daha da gücləndirmişdir. Ölkə iqtisadiyyatının prioritet hədəflərindən olan informasiya-kommunikasiya texnologiyalarının inkişafında yüksək göstəricilər əldə edilmişdir və indi əhalinin əksəriyyəti genişzolaqlı internet istifadəçisidir.

"Azərspace–1" ilk telekommunikasiya peykinin orbitə çıxarılması nəticəsində kosmik ölkələr sırasına qoşulan ölkəmizin təşəbbüskarı olduğu "Trans-Avrasiya Super İnformasiya Magistralı" layihəsi Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qətnamələri ilə dəstəklənmişdir və mərhələlərlə reallaşdırılmaqdadır. İnformasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiyanın qəbul edilməsi dövlətimizin bu sahədə siyasətinin ardıcıl xarakter daşıdığının bariz nümunəsidir.

"Bakutel" sərgi və konfransı artıq öz uğurlu fəaliyyətinin 20 illiyini qeyd edir. Bu ənənəvi tədbiriniz ötən dövr ərzində qabaqcıl texnoloji nailiyyətlərin və yeniliklərin təqdimatına, biznes əlaqələrinin qurulmasına, təcrübə mübadiləsinə və eləcə də ölkəmizlə yaxından tanışlığa imkan verən tribunaya çevrilmişdir. Şərqlə Qərb və Şimalla Cənub arasında körpü təşkil edən Azərbaycanın tarixi İpək Yolunun virtual məkana keçirilməsinə dair təşəbbüsü mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir.



İnanıram ki, sərgi və konfrans çərçivəsində aparacağınız səmərəli müzakirələr qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsinə töhfələr verəcəkdir.

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycan Respublikası Prezidenti yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin (bundan sonra – şəxsiyyət vəsiqəsi) tətbiqi sahəsində aparılan işlərin sürətləndirilməsi və ölkədə elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi məqsədi ilə qərara alıram:**

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi:

1.1. şəxsiyyət vəsiqəsi verən yerli orqanlarının və şəxsiyyət vəsiqələrinin fərdiləşdirilməsi mərkəzlərinin təkmilləşdirilməsini, onların zəruri proqram-texniki vasitələrlə təchiz olunmasını;

1.2. "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin (bundan sonra – İAMAS) şəxsiyyət vəsiqələri üzrə alt sisteminin təkmilləşdirilməsini;

1.3. şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına daxil edilən və dəyişdirilə bilən məlumatlarda dəyişikliklər edilməsi üçün müvafiq infrastrukturun yaradılmasını;

1.4. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə birlikdə, şəxsiyyət vəsiqəsi ilə ölkədən getmək və ölkəyə gəlmək hüququnun həyata keçirilməsi üçün dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrinin proqram-texniki vasitələrinin təkmilləşdirilməsini;

1.5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi üçün "ASAN xidmət" mərkəzlərində və əhaliyə səyyar xidmət göstərən nəqliyyat vasitələrində müvafiq proqram-texniki vasitələrin təchizatını və quraşdırılmasını təmin etsin.

2. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

2.1. yeni sertifikat xidmətləri mərkəzinin və onun ehtiyat mərkəzinin yaradılmasını və şəxsiyyət vəsiqələrinin fərdiləşdirilməsi zamanı vəsiqələrin elektron daşıyıcısına daxil edilməsi üçün İAMAS vasitəsilə verilən sertifikat sorğuları əsasında vəsiqə sahibinin gücləndirilmiş elektron imzası ilə əlaqədar sertifikatların şəxsiyyət vəsiqələrinin fərdiləşdirilməsi mərkəzlərinə real vaxt rejimində ötürülməsini;

2.2. şəxsiyyət vəsiqəsi sahibinin gücləndirilmiş elektron imzasından istifadə ilə əlaqədar vətəndaşlardan daxil olan sualların operativ cavablandırılması məqsədi ilə telefon məlumat xidmətinin yaradılmasını və fəaliyyətini təmin etsin.

www.e-gov.az

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə tapşırılsın ki, şəxsiyyət vəsiqəsinin verilməsi (dəyişdirilməsi) haqqında vətəndaşın ərizə-anketindəki məlumatların real vaxt rejimində yoxlanılması və nəticələrinin İAMAS-a təqdim olunması məqsədi ilə müvafiq dövlət informasiya sistemlərinin inteqrasiyasını Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə birlikdə təmin etsinlər.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına daxil edilən və dəyişdirilə bilən məlumatlarda dəyişikliklər edilməsi üçün müvafiq informasiya sistemlərinin təkmilləşdirilməsini, avadanlığın gücləndirilməsini və zəruri infrastrukturun yaradılmasını təmin etsinlər.

5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti bu Sərəncamın, müvafiq olaraq,

1 – 4-cü hissələrində nəzərdə tutulan işlərin şəxsiyyət vəsiqələrinin hazırlanması məqsədi ilə görülən tədbirlərlə bərabər aparılmasını və 2015-ci il dekabrın 1-dək başa çatdırılmasını təmin etsinlər.

6. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi bu Sərəncamın 5-ci hissəsinə uyğun olaraq şəxsiyyət vəsiqələrinin hazırlanması və tətbiqi məqsədi ilə görülən tədbirlərin əlaqələndirilməsini təmin etsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. şəxsiyyət vəsiqələrinin fərdiləşdirilməsi zamanı vəsiqənin elektron daşıyıcısına vəsiqə sahibinin gücləndirilmiş elektron imzası ilə əlaqədar sertifikatların, elektron imza yaratma və elektron imzanı yoxlama məlumatlarının daxil edilməsi ilə bağlı qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. bu Sərəncamın 1 – 4-cü hissələrində nəzərdə tutulan işlərin 2015-ci il dekabrın 1-dək başa çatdırılması üçün həmin işlərin aidiyyəti dövlət orqanlarının əsaslandırılmış müraciətləri əsasında maliyyələşdirilməsini təmin etsin;

7.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**

***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2014-cü il.*

# ““Bakutel-2014” çərçivəsində keçirilən görüşlər, aparılan faydalı müzakirələr beynəlxalq əməkdaşlığın dərinləşməsinə və yeni layihələrin həyata keçirilməsinə öz dəyərli töhfəsini verəcək”

## Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar naziri, akademik Əli Abbasov “DAILY NEWS” qəzetinə müsahibə verib.

......

**" - Biz hamımız “Elektron xidmətlərin genişləndirilməsi və “elektron hökumət”in inkişafına dair Dövlət Proqramı”nın tezliklə təsdiqlənməsini gözləyirik. Bu sənəd Azərbaycanda İKT-nin ınkişaf strategiyasını necə əks etdirəcək?**

- Azərbaycanın növbəti illər üçün elektron xidmətlərin genişləndirilməsi sahəsində əsas hədəflərini əks etdirən “2014-2016-cı illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və “Elektron hökumət”in inkişafına dair Dövlət Proqramı” hazırda aidiyyati qurumlarla razılaşdırılma mərhələsindədir.

Dövlət Proqramının məqsədi “elektron hökumət”in formalaşdırılması və elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində ölkədə indiyədək aparılmış işlərin davam etdirilməsi, bu sahədə ardıcıl və məqsədyönlü addımların atılması ilə müasir informasiya cəmiyyətinin tələblərinin təmin edilməsidir. Dövlət Proqramında qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün bir sıra məsələlərin həlli nəzərdə tutulur.

Burada sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi; dövlət orqanlarının zəruri informasiya sistemləri və ehtiyatlarının müəyyənləşdirilmiş tələb və standartlara uyğun qaydada yaradılması, inteqrasiyası, təhlükəsizliyinin təmin edilməsi və mövcud informasiya sistemləri və ehtiyatlarının təkmilləşdirilməsi; dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsi prosesinin təkmilləşdirilməsi (vahid informasiya fəzasının yaradılması); modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, şəffaflığının təmin edilməsi və bürokratiyanın aradan qaldırılması ilə “hökumət-vətəndaş” münasibətlərində yeni müstəviyə keçidin təmin edilməsi, vətəndaş məmnunluğunun artırılması; əhaliyə elektron xidmətlərin göstərilməsinin keyfiyyətinin və əlçatan olmasının artırılması, əhatə dairəsinin genişləndirilməsi yer alıb.

*- Dövlət Proqramı üzrə “elektron hökumət”in inkişafı istiqamətində “elektron hökumət” infrastrukturunun inkişaf etdirilməsi;*

*- dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsinin təkmilləşdirilməsi;*

*- “elektron hökumət” portalının təkmilləşdirilməsi və ondan səmərəli istifadənin təmin edilməsi;*

*- İKT sahəsində kadr potensialının gücləndirilməsi;*

*- vətəndaşların “elektron hökumət” üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi;*

*- dövlət qulluqçularının İKT biliklərinin artırılması üzrə təlimlərin keçirilməsi;*
*- müvafiq sahə üzrə qanunvericiliyin təkmilləşdirilməsi daxildir;*
*- unformasiya sistemlərinin və ehtiyatlarının yaradılması və təkmilləşdirilməsi istiqamətinə isə informasiya sistemlərinin monitorinqinin həyata keçirilməsi;*
*- sahələr üzrə dövlət orqanlarının zəruri informasiya sistemlərinin və ehtiyatlarının yaradılması və mövcud informasiya ehtiyatlarının təkmilləşdirilməsi;*
*- fərd haqqında olan məlumatların Fərdi İdentifikasiya Nömrəsi (FİN) ilə əlaqələndirilməsi aiddir.*
*- Elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətinə gəldikdə, burada dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmələrin davam etdirilməsi və elektron xidmətlərin təşkili və göstərilməsinin təkmilləşdirilməsi;*
*- elektron xidmətlərin portativ (mobil) qurğular üzərindən həyata keçirilməsi (mobil xidmətlər), elektron ödənişin genişləndirilməsi;*
*- elektron imzadan istifadənin genişləndirilməsi və mobil imzanın tətbiqi yer alıb.*

Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələrə gəlincə, “elektron hökumət”in inkişafına və dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsinə şərait yaradan normativ hüquqi baza formalaşdırılacaq, elektron xidmətlərin göstərilməsi zamanı istifadə olunan informasiya ehtiyatlarının və onlardan əldə edilməsi zəruri olan məlumatların tərkibinin müəyyən olunması və bu məlumatların “Elektron hökumət” portalı vasitəsilə istifadəsi təmin ediləcək.

Həmçinin dövlət orqanlarının informasiya ehtiyatlarının elektron formaya keçirilməsinin sürətləndirilməsi təmin ediləcək. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin vahid tələblər əsasında yaradılması, inteqrasiyası və təhlükəsizliyi təmin ediləcək, vahid informasiya fəzası formalaşdırılacaq.

“Elektron hökumət” portalının işi təkmilləşdiriləcək, elektron xidmətlərdən istifadə sadələşdiriləcək və dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqi genişləndiriləcək.

Dövlət orqanları arasında elektron xidmətlərin inkişaf etdirilməsi, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyəti, əhatə dairəsinin genişləndirilməsi təmin ediləcək, inzibati proseslərin təkmilləşdirilməsi və hesabatlılığın gücləndirilməsi yolu ilə vətəndaş məmnunluğu artırılacaq və “hökumət-vətəndaş” münasibətlərində yeni müstəviyə keçid təmin ediləcək. Dövlət orqanları tərəfindən xidmətlərin İKT-nin nailiyyətlərindən istifadə edilməklə, həyata keçirilməsi nəticəsində izafi xərclər ixtisar ediləcək.

**- “Fiber to home”, Dата mərkəzi şəbəkələri və İKT sahələrinin inkişafı ilə bağlı əsas və perspektivli layihələr barədə məlumat verməyinizi xahiş edərdik...**

- Azərbaycanda yerli və xarici investisiyaların cəlb olunması üçün yaradılmış əlverişli investisiya və biznes mühiti fonunda İKT sahəsi də investorlar üçün olduqca cəlbedicidir. Hazırda davam edən və icrası gözlənilən bir sıra layihələr vardır ki, onların reallaşdırılmasından gözləntilər böyükdür və bu layihələr sektorun diversifikasiyasına, xidmət keyfiyyətinin yüksəldilməsinə, hökumət xidmətlərində şəffaflığın artırılmasına və tətbiq coğrafiyasının genişləndirilməsinə hesablanıb.

İstinad etdiyiniz “Hər evə optika” ideyasının reallaşdırılması üçün “Milli Genişzolaqlı İnternetin inkişafı” layihəsi hazırlanıb və yaxın vaxtlarda icrasına başlanılması planlaşdırılır. Layihə növbəti 3 il ərzində ölkənin hər bir yaşayış məntəqəsində fiber-optik kabel şəbəkəsi vasitəsi ilə əhalinin yüksəksürətli genişzolaqlı internet və digər müasir telekommunikasiya xidmətlərinə çıxışının təmin edilməsini nəzərdə tutur. Həmçinin, layihədə texniki infrastrukturun qurulması ilə yanaşı, qurulacaq şəbəkədən birgə istifadənin təmin edilməsi, çevik idarəetmə strukturunun və sağlam tənzimləyici mühitin yaradılması üzrə də işlər nəzərdə tutulub.

Ölkədə çoxsaylı informasiya resurslarının və xidmətlərin yaradılması, onlardan istifadənin genişlənməsi və informasiya sistemlərinin qlobal informasiya məkanına inteqrasiyasının genişlənməsi Azərbaycanda da Data Mərkəzin yaradılmasını zəruri edib. Artıq layihənin icrasına başlanılıb. Beynəlxalq tender keçirilib və qalıb şirkət seçilib. Mərkəzin qurulacağı yer müəyyən edilib və hazırda binanın rekonstruksiyası işləri aparılır. Mərkəzin 2015-ci ilin birinci rübündə istismara verilməsi nəzərdə tutulur.

Eyni zamanda, “E-hökumət” həllərinin təbiqi, müxtəlif peyklərin orbitə çıxarılması və kosmik sənayenin inkişafı, dinc məqsədlərlə nüvə texnologiyalarından istifadə, nanotexnologiyaların tədqiqi, rəqəmli yayım üzrə müasir yayım standartlarının təmini, bütün ölkə üzrə efirə avtomatik nəzarəti həyata keçirə bilən Mərkəzləşmiş Avtomatik Radiomonitorinq şəbəkəsinin qurulması, informasiya təhlükəsizliyinin təmin edilməsi, regionun beynəlxalq “backbone” şəbəkəsinə qoşulmasına xidmət edən TASİM və EPEG kimi perspektiv layihələrimiz də vardır."

...

## Azərbaycanda rəsmi səfərdə olan Koreyanın Baş naziri Çanq Honqvon Azərbaycanda “Elektron hökumət” sisteminin sürətli inkişafını yüksək dəyərləndirdiyini bildirdi

Noyabrın 26-dan Azərbaycanda rəsmi səfərdə olan Koreya Respublikasının Baş naziri Çanq Honqvon yerli xəbər saytlarına verdiyi müsahibədə son illər ölkəmizdə baş verən innovativ dəyişikliklərə öz münasibətini bildirmişdir. Koreya-Azərbaycan əlaqələri eləcə də, hər iki ölkənin beynəlxalq müstəvidə BMT və digər qurumlarla sıx əməkdaşlıq münasibətlərinin davam etdiyini qeyd edən baş nazir 2007-2012-ci illərdə prezident İlham Əliyevin Koreya Respublikasına rəsmi səfərlərinin hər iki dövlət arasında diplomatik münasibətlərin dərinləşməsinə təkan verdiyini vurğuladı.

Baş nazir Azərbaycanda digər sahələrlə yanaşı “Elektron hökumət” sisteminin sürətli inkişafını yüksək dəyərləndirdiyini, Azərbaycanın “Elektron hökumət” sisteminin BMT-nin “elektron hökumət” araşdırmasına əsasən, 2010-cu illə müqayisədə 28 pillə irəliləyərək 2014-cü ildə 68-ci yerdə qərarlaşmasını böyük müvəffəqiyyət hesab etdiyini söylədi.

Cənab Çanq Honqvon dedi: “Elektron hökumət” təchizat sahəsində ictimai xidmətin, məlumatın saxlanılmasının, inzibati idarəçiliyin səmərəliliyini artıran çox faydalı infrastruktur formasıdır və insanların gündəlik həyatlarını daha da asanlaşdırır”. Həmiçinin, Koreya “elektron hökumət” sisteminin yaradılması və inkişafı üçün Azərbaycan ilə fəal surətdə təcrübə və biliklərini paylaşdığını ifadə etdi.

Çanq Honqvon müsahibəsində, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİCA) Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyində elektron təhsil mərkəzinin yaradılması üzrə layihə həyata keçirdiyini və bununla əlaqədar olaraq Azərbaycanın hökumət rəsmiləri üçün müxtəlif təlim proqramları təşkil etdiyini, həmçinin gələcəkdə Azərbaycan ilə elektron təchizat və mərkəzləşdirilmiş maliyyə menecmenti məlumatı sistemləri sahələrində əməkdaşlığı genişləndirməyə çalışacağını vurğuladı.

Baş nazir öz müşahidələrinə əsasən, coğrafi mövqelərinə görə bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, Azərbaycan və Koreya Respublikalarını yaxınlaşdıran dəyərlərin mövcudluğundan, bir çox adət-ənənələrimizin oxşarlığından- böyüklərə hörmət, qonaqpərvərlik və s. bəhs edərək, Azərbaycan hökuməti və xalqının dost münasibətini yüksək dəyərləndirdiyini və iki dövlət arasında əlaqələrin gələcəkdə daha da güclənməsi üçün səylərini əsirgəməyəcəyini bir daha bəyan etdi.



...

## Avropa Yenidənqurma və İnkişaf Bankı: “Azərbaycan Qafqazda İKT-nin keyfiyyətinin yaxşılaşmasına xidmət edir”

Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində həyata keçirilən layihələr Qafqazda telekommunikasiyanın keyfiyyətinin yaxşılaşmasına xidmət edir. Bu barədə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) keçid prosesi haqqında hesabatında (Transition Report 2014) deyilir.

Hesabata əsasən, Azərbaycanda 2010-cu ilədək əsasən infrastrukturun yaxşılaşdırılmasına diqqət ayrılıb, nəticədə kommunikasiya şəbəkələri tam rəqəmli formata keçirilib və xarici internet kanallarının buraxılış qabiliyyəti artırılıb. Telekommunikasiya bazarının liberallaşdırılması özəl sektor üçün imkanlar açıb ki, bu da öz növbəsində, internetə limitsiz genişzolaqlı çıxış tariflərini azaldıb.

Sənəddə bildirilir ki, Azərbaycanda son illər İKT sahəsində bir sıra təşəbbüslər həyata keçirilib: “2011-ci ildə 40 dövlət qurumunun xidmətlərinin təqdim edildiyi (2013-cü il üçün olan vəziyyətə görə) “Elektron hökumət” portalı işə salınıb. 2009-2011-ci illərdə İKT sektoruna yatırılmış dövlət və özəl investisiyaların həcmi iki dəfədən çox artırılıb".

Hesabatda o da deyilir ki, bu ilin iyul ayında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu yüksək texnologiyalar, elektron ödəniş proqramları, aeronaviqasiya sistemləri və “e-hökumət” sahələrini əhatə edən 31 "startup"a qrantlar təqdim edib: "2013-cü ildə Azərbaycanda İnformasiya Texnologiyaları Universiteti yaradılıb, eləcə də Azərbaycanın ilk "Azerspace-1" telekommunikasiya peyki orbitə buraxılıb. Bütün bunlar Qafqazda telekommunikasiyanın keyfiyyətinin yaxşılaşmasına və Azərbaycanın kosmik sənayesinin inkişafına xidmət edir. Son 10 ildə Azərbaycanda İKT sektorunun illik inkişaf tempi 25-30 faiz olub. Bunun sayəsində bu sahəyə neft sənayesindən sonra ən çox xarici investisiya yatırıldığı", - hesabatda vurğulanır.

European Bank
for Reconstruction and Development

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti “Elektron hökumət” portalına qoşulub

“Elektron hökumət” portalında elektron xidmətlərini təqdim edən dövlət qurumlarının sırasına yenisi əlavə edilib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) portala qoşulub.

“SHXÇDX-yə həqiqi hərbi xidmətə (işə) qəbulla əlaqədar müraciətin və sənədlərin qəbulu”, “Hərbi xidmətkeçmə haqqında arayışın verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, “İtirilmiş hərbi bilet və ya təhkimetmə vəsiqələrinin əvəzinə yenisinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, “SHXÇDX-dən arxiv arayışlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu” xidmətləri portala inteqrasiya olunub.

# ƏƏSMN-nin yalnız iki e-xidməti üzrə istifadəçi sayı ölkə üzrə ümumi istifadəçi sayının 36,6 fazini təşkil edir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" elektron xidmətindən istifadə sayı son bir ayda 256232 ədəd təşkil edib. Bununla da həmin e-xidmət növü "Elektron hökumət" portalının ( https://www.e-gov.az) ən çox istifadə olunan elektron xidmətlər üzrə təqdim etdiyi siyahıda ilk yeri tutmaqda davam edir.

"Elektron hökumət" portalının məlumatına əsasən ümumiyyətlə, cari ilin 1 iyulundan tətbiqinə başlanan "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" elektron xidmətindən 1 877 634 dəfə, "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" elektron xidmətindən isə 176 000 dəfə istifadə olunub. ƏƏSMN-nin hər iki xidmət növü üzrə bu vaxta qədər istifadə sayı 2 053 634-dür ki, bu da "Elektron hökumət" portalı vasitəsilə e-xidmətlər üzrə bu vaxta qədər ümumi istifadə sayının (5 597 818 ədəd) 36,6 faizini təşkil edir.

Xatırladaq ki, Azərbaycan Prezidentinin 2014-cü il 3 fevral tarixli Fərmanına əsasən, ƏƏSMN tərəfindən cari ilin 1 iyulundan tətbiqinə başlanan əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi işçi və işəgötürənlər arasında bağlanan əmək müqavilələrinin, bu müqavilələrə dəyişiklik edilməsi və ya xitam verilməsinin müvafiq bildiriş formalarında elektron qeydiyyatdan keçirilməsi üçündür. Bağlanan hər bir əmək müqaviləsi, yaxud ona dəyişiklik edilməsi və ya xitam verilməsi həmin sistemdə qeydiyyatdan keçirildikdən sonra hüquqi qüvvəyə minir. Əmək münasibətlərinin elektron qeydiyyatı əmək hüquqlarının təminatına dövlət nəzarəti mexanizminin təkmilləşməsinə, işçilərin gələcək sosial, habelə layiqli pensiya təminatı üçün etibarlı hüquqi əsasın formalaşmasına, sosial sığorta haqları və s. daxilolmaların artmasına yönəlib.

# Kağız arayışlar sıradan çıxır

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlərin müzakirəsinə həsr olunmuş iclas keçirilib

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov tibbi-sosial ekspertiza sahəsində şəffaflığın təmin olunması yönündə konkret işlərin görüldüyünü, bu sahəyə nəzarətin xeyli gücləndirildiyini bildirib. Əlillik təyinatı və reabilitasiya məsələləri ilə əlaqədar şikayət xarakterli müraciətlərin sayının kəskin şəkildə azalaraq minimuma endiyini qeyd edən nazir, səylərin əlillik təyinatı prosesinin tam avtomatlaşdırılmasına yönəldiyini, artıq Tibbi-Sosial Ekspertiza və Əlillərin Reabilitasiyası İnformasiya Sisteminin yaradılaraq funksional tələblərə uyğunluğunun yoxlanıldığını vurğulayıb: "Bu yeni sistem əlillik müayinələrinin aparılması üçün müvafiq qurumlar arasında elektron məlumat mübadiləsini təmin edəcək. Yəni tibbi-sosial ekspert komissiyaları (TSEK) tərəfindən vətəndaşların əlillik vəziyyətlərinin müəyyən olunması üçün göndəriş formalarının (88 nömrəli forma) səhiyyə müəssisələrindən qəbulu bu sistem üzrə elektron qaydada yerinə yetiriləcək.

Digər tərəfdən həmin sistem vasitəsilə əlillik müayinələrinin nəticələri ilə bağlı elektron məlumat bazası yaradılıb ki, TSEK-lər əlillik qrupları almaq üçün müraciət edən vətəndaşların xəstəlik vəziyyətləri, müayinələrinin nəticələri, hər bir ilkin və təkrar əlillik təyinatı barədə məlumatları bu bazaya yerləşdirirlər. Bununla da əlillik təyinatı barədə aidiyyəti dövlət orqanına təqdim olunmaq üçün vətəndaşlara kağız arayışların verilməsinə ehtiyac qalmır. Çünki bu sistem aidiyyatı təşkilatların informasiya ehtiyatlarına inteqrasiya olunduğundan onlar vətəndaşlara əlilliyə görə pensiya və ya müavinət təyin olunması üçün müvafiq informasiyaları həmin bazadan elektron qaydada əldə edəcəklər. Bərpa mərkəzlərinin fəaliyyəti də əsasən elektron məlumat bazasındakı məlumatlar əsasında təşkil olunacaq. Eyni zamanda vətəndaşlar da öz əlillik müayinələrinin nəticələri ilə elektron qaydada tanış ola və lazım gəldikdə əlillik müayinələri barədə elektron arayışlar əldə edə biləcəklər".



İclasda görülən işlərin yekunları, tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası ilə bağlı informasiya sisteminin tətbiqi məsələləri və əlillik müayinələrinin nəticələrinə dair informasiyaların elektron məlumat bazasına daxil edilməsi sahəsində mövcud vəziyyət və qarşıda duran vəzifələr ətraflı müzakirə olunub. Yol verilən nöqsanlardan da söz açılıb, fəaliyyətlərində nöqsanlara yol verən vəzifəli şəxslər barəsində intizam tənbehi tədbirlərinin görülməsi üçün qərarlar qəbul edilib.

www.e-gov.az

# Əlillik müayinələrinin nəticələri ilə bağlı elektron məlumat bazası yaradılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) Tibbi-Sosial Ekspertiza və Əlillərin Reabilitasiyası İnformasiya Sistemindən (TSEƏR) istifadəyə dair treninq keçirilib.**

Müvafiq qurumların əməkdaşları üçün təşkil olunan treninq zamanı iştirakçılara sistemdən istifadə bacarıqları aşılanıb, onlara bu sistemin məqsədi, onun tətbiqi nəticəsində gözlənilən nailiyyətlər barədə məlumatlar çatdırılıb. Eyni zamanda təlimdə e-imza, e-sənəd haqqında və onlardan istifadəyə dair məlumatlar verilib.

ƏƏSMN tərəfindən yaxın vaxtlarda istifadəyə veriləcək Tibbi-Sosial Ekspertiza və Əlillərin Reabilitasiyası İnformasiya Sistemi vasitəsilə əlillik müayinələrinin nəticələri ilə bağlı elektron məlumat bazası yaradılıb. Yeni məlumat bazası əlillik müayinələrinin nəticələri ilə bağlı aidiyyatı qurumlar arasında elektron məlumat mübadiləsinə, həmçinin vətəndaşlara əlilliyə görə pensiya və ya müavinət təyin olunması üçün müvafiq informasiyaların aidiyyatı qurumlar tərəfindən elektron qaydada əldə edilməsinə imkan yaradacaq. Bu isə əlillik təyinatları zamanı şəffaflığın təmin olunmasına və məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsinə gətirib çıxaracaq.



Yeni informasiya sistemi istifadəyə verildikdən sonra eyni zamanda vətəndaşlar da öz əlillik müayinələrinin nəticələri barədə məlumatları elektron qaydada əldə edə biləcəklər. Bu isə artıq əlillik müayinələri barədə elektron arayışların verilməsini təmin edəcək.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, treyninqin sonunda İnformasiya texnologiyaları şöbəsinin əməkdaşları tərəfindən iştirakçıların İKT biliklərinin qiymətləndirilməsi aparılıb və informasiya sisteminə dair təkliflər müzakirə olunub.

# "Elektron Hökumət" quruculuğunda yeni mərhələ - Açıq Hökumət Məlumatları

Elm və Texnologiya əsri sürətlə inkişaf etməkdədir və dünən müasir hesab edilən metodlar bu gün aktual olmur və daha yeniləri ilə əvəz olunmasına ehtiyac duyulur. İnformasiya cəmiyyətinin inkişafında aparıcı rola malik olan "Elektron hökumət" portalının daima inkişaf etdirilməsi üçün innovativ yeniliklərin öyrənilməsi və tətbiqi əsas prioritet məsələlərdəndir. Qlobal sferada gedən bütün transformasiya prosesləri "Elektron Hökumət portalının" praktikasında əks etdirilməli, müsbət cəhətlər mənimsənilərək tətbiq edilməli və göstərilən elektron xidmətlər ictimai rəy əsasında daima təkmilləşdirilərək istifadəçilərə təqdim edilməlidir.

Bu gün "Elektron Hökumət" portalı dövlət və hökumət səviyyəsində idarəçilik metodu kimi tətbiq edilir və portala inteqrasiya olunmuş hər xidmət, bir qurumun qapısı rolunu oynayaraq 24 saat vətəndaşlara xidmət edir. "Elektron Hökumət" infrastrukturu yaradıldığı gündən bu günə qədər bir neçə inkişaf mərhələsi keçmişdir. Bu mərhələləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- *E-hökümət 1*
- *E-hökümət 2*
- *E-hökumət 3*

**E-hökumət 1.** "E-hökumət" infrastrukturunun öz inkişaf dövründə keçdiyi ilk pillə onun formalaşdırılması mərhələsini əhatə edir. Bu dövr hökumətyönümlü xidmətlərlə, əməkdaşlıqlarla, tədbirlərlə xarakterizə olunur. Dövlət səviyyəsində məlumatların elektronaşdırılması bu mərhələnin ilkin pilləsi hesab edilir.



**E-Hökumət 2.** Sonra "E-hökumət" infrastrukturu yeni mərhələdə inkişaf etdirildi. Bu mərhələ mahiyyət etibarı ilə vətəndaşyönümlü xidmətlərin "bir pəncərə prinsipi" əsasında cəmiyyətə təqdim edilmə prosesindən ibarətdir. Bu mərhələdə məlumatların bir qismi məhdud çərçivədə istifadəçilər üçün hazırlanaraq portal üzərindən təqdim edildi. Bura istifadəçiyönümlü interfeysin hazırlanması, portalın funksiyalarının artırılması, qeydiyyatın sadələşdirilməsi və təbliğat-təşviqat tədbirləri də aiddir.

**E-Hökumət 3.** "Elektron hökumət" quruculuğunun bu mərhələsini **"Açıq Hökumət Məlumatları"** başlığı altında ifadə etmək mümkündür.

Bu mərhələ "Elektron Hökumət" quruculuğu üzrə beynəlxalq İKT sahələrinin praktikadan keçirdiyi yeni mərhələdir və "Hökumət Məlumatlarının" açıq şəkildə istifadəyə verilmə mərhələsidir. Bu mərhələ "OPEN GOVERNMENT DATA" - "AÇIQ HÖKUMƏT MƏLUMATLARI" kimi tanınır.

**"Açıq Hökumət Məlumatları"** azad şəkildə heç bir məhdudiyyət qoyulmadan istənilən şəxs tərəfindən istənilən məqsədlə istifadə edilən, şəkli dəyişdirilərək başqa formaya salınan (sxem, xəritə, diaqram və s.) və paylaşılan məlumatlardır. Bu məlumatlar mobil proqramların hazırlanmasında istifadə üçün nəzərdə tutulur və bütün əməliyyat sistemləri tərəfindən oxuna bilən formatda olmalıdır. "Açıq Hökumət Məlumat"-ları çox çeşidli məlumatları əhatə edir. Bu məlumatlar əsasən real vaxt məlumatları (hava proqnozu, nəqliyyat, birja və s.) və statistik məlumatlar olaraq iki növdə qruplaşdırılır. Beynəlxalq praktikaya əsasən "Açıq Hökumət Məlumat"-ları aşağıdakı prinsiplər üzrə təmin edilməlidir:

- **Tamlıq** - bütün ictimai məlumatlar əlçatan edilməlidir. Bu məlumatlara məxfiliyi qorunmalı olan fərdi məlumatlar aid deyil.

- **Üstünlük** - məlumatlar ümumiləşdirilmiş və ya dəyişdirilmiş formada deyil, ən yüksək detalizasiya səviyyəsində mənbədə toplanılmış şəkildə emal edilməlidir.

- **Zamanlama daxilində** - məlumatların mahiyyətinin itməməsi məqsədilə lazım olduğu qədər tez və operativ hazırlanmalıdır.

- **Fiziki və elektron şəkildə əldə etmə asanlığı** - məlumatlar ən geniş həcmli məqsədlər üçün ən geniş istifadəçi kütləsinə əlçatan olmalıdır.

- **İT cihazlar tərəfindən oxuna bilinən** - məlumatlar avtomatik işləmləri təmin edəcək şəkildə formalaşdırılmalıdır.

- **İnformasiya bərabərsizliyinə yol verilmədən** - məlumatlar hər kəs üçün qeydiyyat tələbi olmadan əlçatan edilməlidir. Məlumatların istifadə olunmasına heç bir ayrı-seçkilik qoyulmamalıdır. Məsələn: "Yalnızca qeyri-kommersiya sahələrinin istifadəsi üçün" məhdudiyyəti qoyulursa, bu o deməkdir ki, kommersiya sahələri və kommersiya məqsədilə istifadə oluna bilməz.

- **Sənədləşdirmə** - məlumatlar heç bir müəllif haqqı, patent, ticarət nişanı və ya ticarət sirrinin tənzimləməsinin subyekti deyil.

Bu işdə "Açıq Hökumət Məlumat"-larını təmin edən dövlət qurumlarının öhdəsinə düşən başlıca vəzifələr:

- *Açıq Hökumət məlumatlarının müəyyən edilməsi;*
- *İT cihazlar tərəfindən oxuna bilən formatda toplanılması;*
- *Bir pəncərədən vətəndaşlara təqdim edilmə;*
- *Bu işə vətəndaş marağının artırılması;*
- *Vətəndaşlarla birgə əməkdaşlıq.*

Məlumatların Açıq təqdim edilməsi aşağıdakı tələblərə uyğun aparılmalıdır:

*- Məlumatların açıq təqdim edilməsi ümumi qəbul edilmiş əsaslarla aparılmalıdır və bu istiqamətdə görülən işlər "açıqlıq" şərtlərinə uyğun olmalıdır.*

*- Məlumatlar internet vasitəsilə ödəniş tələbi olmadan yüklənilə bilən formatda olmalıdır. Məlumatla bağlı istənilən əlavə informasiya ( məs, informasiya təqdim edən qurumun adı və s.) mümkün edilməlidir.*



*- Məlumatlar heç bir texniki maneələr olmadan, rahat və formasını dəyişmək mümkün olan formatda təqdim edilməlidir. Açıq kod proqram alətləri (open-source software tool) vasitəsi ilə emal edilə bilən olmalıdır.*

Məlumatlar rahat işlənilə bilən formatda olmalıdır dedikdə, JSON (sadə formatdır, istənilən proqram dilli tərəfindən asanlıqla oxuna bilinəndir), XML (məlumat mübadiləsində geniş istifadə olunur, məlumatları olduğu strukturda fayllar şəklində saxlamaq imkanı verir həmçinin, informasiya üzərində işləyənlərə məlumatlarla birlikdə sənədləşmə prosesinin bir hissəsini saxlamaq imkanı yaradır), RDF (RDF məlumatları həm XML həm də JSON formatında saxlanı bilər) kimi sadə formatlar nəzərdə tutulur.

"Açıq Hökumət Məlumat"-ları tam şəkildə tətbiq edildikdən sonra ictimai problemlər, gündəlik tələbatlar, mağazada alış-veriş etməkdən tutmuş istirahətə qədər hər bir şəxsin həyatına yenilik gətirəcək, əlverişli mobil proqram təminatları ödənişsiz olarav əhalinin istifadəsinə veriləcək. Aylarla məlumat toplanaraq planlaşdırılan işlərin icrası hazır şəkildə təqdim edilən açıq məlumatlar vasitəsilə daha sürətli həyata keçiriləcək və Elektron Hökumət portalından vətəndaşların və hüquqi şəxslərin daha rahat və daha geniş şəkildə istifadəsinə imkan yaranmış olacaq.




www.e-gov.az

# Məlumat Hesablama Mərkəzi "Elektron Hökumət"portalı haqda statistik məlumatları təqdim edir

"Elektron Hökumət"portalının təqdim etdiyi elektron xidmətlərin çeşidi və keyfiyyəti artdıqca və portalda yeni servis və funksionallıqlar təqdim edildikcə e-xidmətlər vətəndaşlar üçün daha əlçatan olur və portala itifadəçi marağı daha da artır.

Hər ay dərc edilən elektron hökumət bülletenlərində portala inteqarsiya edilmiş elektron xidmətlərin sayı, ay ərzində istifadəçilərin sayı, xidmətlərdən istifadə sayı, ay ərzində ən çox istifadə olunan elektron xidmətlərin sayı, vətəndşlar tərəfindən əldə edilən elektron imza kartlarının sayı və s. barədə statistik məlumatlar dərc edilir.

İstifadəçi marağının artdığını nəzərə alaraq "Elektron Hökumət"portalı 2013-cü il və 2014-cü ilin 10 ayı ərzində bir neçə sahələr üzrə statistik məlumatları öz istifadəçilərinə təqdim edir.

Təqdim olunan ilk cədvəldə 2013-2014-cü illər ərzində RYTN MHM tərəfindən təqdim olunmuş elektron imza sertifikatlarının sayı barədə statitik məlumat öz əksini tapib:

2013-2014-cü illər ərzində “Elektron Hökumət” portalına qoşulan qurumların sayı barədə statistik məlumatın qrafik təsvirinə nəzər salsaq, portala qoşulan qurumların sayındakı artımı müşahidə etmək olar. Təbii ki, qurumların portala qoşulması vətəndaşların portala olan maraq və tələbatının artmasından irəli gəlir.

"Elektron Hökumət" portalının operatoru olaraq MHM istifadəçilərə müxtəlif sahələr üzrə yeni xidmətlər təqdim etməklə yanaşı, elektron xidmətlərin keyfiyyətinin artırılması üçün daima təkmilləşdirmə işləri apararaq onları yüksək səviyyədə istifadəçilərə təqdim etməyə çalışır.

“Elektron Hökumət” portalında təqdim olunmuş elektron xidmətlərin sayı haqqında statistik məlumata nəzər saldıqda hər ay qurumların yeni xidmətlərinin portala inteqrasiya olunması müşahidə edilir. 2013-cü ilin yanvar ayında portalda179 elektron xidmət var idisə, 2014-cü ilin noyabr ayının 1-nə bu rəqəm 383-ə yüksəlib.

2013-2014-cü illər ərzində “Elektron Hökumət” portalının istifadəçilərinin sayı 1067420 təşkil edib.

Ümumilikdə, istifadəçilərin portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də sayı artmaqdadır. Bu isə “Elektron Hökumət”portalının populyarlığının artmasının göstəricisidir.

2013-2014-cü illər ərzində “Elektron Hökumət” portalında yerləşdirilmiş e-xidmətlərdən istifadə sayının statistik diaqramına nəzər salsaq görərik ki, 01.11.2014-cü il tarixinədək elektron xidmətlərdən 5812582 dəfə istifadə olunub.















# Vətəndaşlar daha bir arayışı "Elektron hökumət" portalı vasitəsilə əldə edə biləcəklər

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin daha bir elektron xidməti "Elektron hökumət" portalına ineqrasiya edilmişdir. Artıq vətəndaşlarımız bu elektron xidmət - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim edilən "**İş yerinə dair arayış**" xidməti vasitəsilə heç bir yerə müraciət etmədən, rahatlıqla iş yerinə dair arayışı elektron şəkildə əldə edə biləcəklər.

**Qeyd edək ki, elektron arayışların bir sira üstünlükləri var:**

***- Vətəndaşların vaxt itkisinin aradan qaldırılması və rahatlığın təmin edilməsi;***
***- Bürokratik proseslərin aradan qaldırılması;***
***- Vətəndaşın fərdi məlumatlarının dəqiq göstərilməsinə əminliyin olması;***
***- Müxtəlif qurumlara saxta arayışların təqdim edilməsinin aradan qaldırılması;***
***- Şişirdilmiş əmək haqqlarının göstərilməsinin qarşısının alınması və sair.***

İstifadəçi portalda "**İş yerinə dair arayış**" e-xidmətinə daxil olan zaman onun FİN-nə uyğun olaraq iş yerlərinin siyahısı avtomatik olaraq ekranda əks olunur. Növbəti addımda istifadəçi açılmış arayış formasında arayışın növünü (əmək haqqının göstərilməsi və ya göstərilməməsi), təyinatını (kredit almaq üçün, viza almaq üçün və ya digər), təqdim olunacağı qurumu (ümumi və ya ünvanlı), son etibarlılıq tarixini və digər zəruri məlumatları daxil edir.

Əgər daxil edilən hər hansı bir məlumat müvafiq formata uyğun deyilsə və ya qeyri-dəqiq məlumat daxil edilmişdirsə, ekranda həmin xana üzərində istifadəçiyə qeyd şəklində məlumat bildirilir. Bütün məlumatlar düzgün şəkildə daxil edildikdən sonra istifadəçi "Təsdiqlə" düyməsini klikləyir.

Bundan sonra arayış PDF formatında istifadəçinin kompüterinə yüklənir. Sistem tərəfindən arayışın aşağı hissəsində onun doğruluğunu təsdiqləyən QR kod qeyd olunur. Arayışı çap etmək və elektron şəkildə aidiyyatı e-poçt ünvanına göndərmək mümkündür.

Qeyd edək ki, "İş yerinə dair arayış" müxtəlif qurumlar tərəfindən vətəndaşlardan ən çox tələb olunan arayışlardandır. Ümumiyyətlə, elektron arayışların tətbiqi gələcəkdə vaxta qənaət edilməklə yanaşı süründürməçiliyin qarşısını alacaq, bürokratik maneələri aradan qaldıracaq və lazımsız kağız itkisini əngəlləyəcəkdir.

# Azərbaycanda elektron ticarətin həcmi artıb



Bu ilin 10 ayı ərzində ölkədə elektron ticarətin həcmi 5 milyon manatı ötüb.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin on ayında elektron pərakəndə ticarət dövriyyəsinin həcmi ötən ilin yanvar-oktyabr aylarına nisbətən 2,5 dəfə artaraq 5,1 milyon manat təşkil edib.

Analitik.az-ın məlumatına görə, əhali onlayn rejimində sifariş verdikləri istehlak mallarının 91,6 faizini hüquqi şəxslərin, 8,4 faizini fərdi sahibkarların ticarət şəbəkələrindən alıb. Elektron ticarət dövriyyəsinin 95,0 faizini qeyri-ərzaq malları təşkil edib.

# "Muğanbank" da elektron arayışa keçdi

*Azərbaycanda elektron arayışla kredit verən bankların sırasına "Muğanbank"da qoşulub. Bu məqsədlə "Muğan bank" Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) ilə müqavilə bağlayıb. Əməkdaşlıq çərçivəsində "Muğanbank"dan kredit almaq istəyənlər elektron arayışdan istifadə edə biləcəklər.*

**Elektron arayışla kredit necə veriləcək?**

Yeni qaydaya görə, müştəri www.e-gov.az elektron hökumət portalına daxil olaraq "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" xidməti vasitəsilə elektron arayış yazıb banka göndərir. Elektron portala daxil olmaq üçün elektron imza sertifikatı, mobil imza və ya kod parollardan istifadə etmək olar. Kod parolu almaq üçün vətəndaş elektron portalda online qeydiyyat xidmətindən istifadə edə bilər.

**Kod parolları "Muğanbank"da da almaq olar.**

Müqavilə şərtlərinə əsasən bankın filiallarında MHM-in qeydiyyat məntəqələri də fəaliyyətə başlayır.




Nəticədə müştəri kod parol olan zərfləri bank filiallarından da əldə edə bilər. Bunun üçün şəxsiyyət vəsiqəsini təqdim etmək kifayətdir. Şifrəni alan müştəri "Elektron Hökümət" portalında öz şəxsi kabinetinə daxil olub elektron arayış göndərə bilər. Müştəri fərdi məlumatlar üzrə elektron arayışı evindən, iş yerindən və yaxud bankda bu layihə üçün quraşdırılmış xüsusi terminal vasitəsilə də göndərə bilər. Göndərilən arayışlar "Elektron hökümət" tərəfindən onlayn qaydada imzalanır.

www.e-gov.az

# Azərbaycanda reseptlərin yazılış qaydası avtomatlaşdırılacaq

**Azərbaycanda dərman preparatları üzrə reseptlərin çıxarışı qaydası avtomatlaşdırılacaq. Bunu Trend-ə "Səhiyyənin intellektual idarəetmə mərkəzi" (SİİM) layihəsinin rəhbəri İlqar Tağıyev bildirib.**

SİİM layihəsi Azərbaycan İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun, Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin maliyyə dəstəyi ilə həyata keçirilir.

Dövlət Fondu tərəfindən layihənin reallaşdırılmasına 20 min manat ayrılıb.

İ.Tağıyev deyib ki, SİİM platforması özündə xəstəlik tarixini (elektron kart) ehtiva edir. Burada pasiyentlər tərəfindən qəbul olunan və ya olunacaq preparatların siyahısı ətraflı əks olunacaq. Vətəndaşlar xidmətdən ödənişsiz istifadə edəcəklər. Sistemin praktiki tətbiqi haqqında danışıqlar ölkənin Səhiyyə Nazirliyi səviyyəsində aparılır: "Bəzi pasiyentlərdə həkimə getməklə bağlı müəyyən qorxu var. Təəssüf ki, bu gün bütün dünyadakı xəstəxanalarda baş verən səhvləri nəzərə alsaq, bunu əsassız adlandırmaq çətindir. Hər gün milyonlarla insan sonu ölümlə nəticələnən səhv reseptlər alır. SİİM layihəsi dərman preparatları üzrə reseptlərin yazılışında yol verilən səhvlərin aradan qaldırılmasını nəzərdə tutur".

Onun sözlərinə görə, sistem həkimlərə müalicə dövründə pasiyentlər və daha əvvəl xəstəyə yazılan digər dərman preparatlarının qarşılıqlı təsiri baxımından onlara yazılan dərman preparatları haqqında statistika aparmağa imkan verir. Bu, bir-biri ilə uyuşmayan dərmanların eyni vaxtda tətbiqindən qaçmağa imkan verir: "Praktikada resept unikal kod şəklində SMS-lə xəstəyə göndəriləcək və həmin kodla preparatı aptekdən almaq mümkün olacaq. Əgər əczaçı üzrlü səbəblərdən reseptdə göstərilən preparatın əvəzləyicisini təqdim edərsə, onda həmin informasiya da sistemdə öz əksini tapacaq".

Sistem xatırlatma funksiyasına malik olacaq ki, bu da həkim tərəfindən yazılmış preparatları vaxtında qəbul etməyə imkan verəcək, həmçinin onlayn həkim konsultasiyaları funksiyasına malik olacaq. Pasiyentlər həkimə başçəkmə tarixlərini və onların hansı preparatları qəbul etdiklərini izləyə biləcəklər.

Sistem aptekin işini asanlaşdırmağa imkan verən modullara da malik olacaq: Məsələn, dərmanların yararlılıq müddətinə nəzarət etmək. Apteklərə yararlılıq müddəti üzrə illik audit yoxlamalarını aparmaq lazım gəlməyəcək, çünki sistem bu və ya digər preparatın istifadə müddətinin başa çatması barədə vaxtında xəbərdarlıq etməyə imkan verir. Bunun üçün onların çatdırılması zamanı tarix bazasına yararlılıq müddətinin daxil edilməsi kifayətdir.



İ.Tağıyev qeyd edib ki, hazırda informasiyanın əsaslanacağı veb-interfeysin hazırlanması üzrə işlər başa çatmaqdadır: "Bu istiqamətdə işlərin ilin sonunda tamamlanması planlaşdırılır. İstifadəçilərin həm desktop versiyadan, həm də Android və iOS ƏS mühitində çalışan smartfon və planşet kompüterlər üçün uyğunlaşdırılmış versiyadan istifadə etməsi mümkün olacaq".

Layihə rəhbərinin dediyi kimi, miqyasına görə SİİM iri layihədir və perspektivdə onun genişləndirilməsi üçün əlavə kapital qoyuluşlarının tələb olunacağı istisna edilmir. Söhbət ali tibbi məktəblərin tələbələri üçün təlimlərin keçirilməsi məqsədilə aparat platformalarının alınması, marketinqin təşkilinə xərclər və s. haqqında gedir: "Əsas məsələ bu xidmətin genişləndirilməsi üçün dəyərli platformanın qurulmasıdır. Hazır platformanın mövcudluğu və Azərbaycan Səhiyyə Nazirliyinin razılığı respublikada bu sistemin praktiki tətbiqinin əsas amilidir. Əlbəttə, biz maraqlıyıq ki, sistem ölkə üçün faydalı olsun, amma onun respublika xaricində öz tətbiqini tapa biləcəyi istisna edilmir. Buna səbəb Qazaxıstanda və Dubayda bu sistemə göstərilən böyük maraqdır".

# Artıq istifadəçilər axtarış sistemi vasitəsilə istədikləri nömrəni sifariş edə biləcəklər




"Nar Mobile" mobil operatoru yeni www.narsim.az İnternet saytını istifadəçilərinin xidmətinə verdi.

Bu sayta daxil olanlar istədikləri hər hansı bir "Nar" nömrəsini satışda olan nömrələr arasında axtara biləcəklər. İstifadəçinin axtardığı nömrə sistemdə olarsa, onlayn sorğunu cavanlandırmaqla onu sifariş etmək mümkün olacaq. Sifariş əsasında istifadəçi ilə əlaqə saxlanılır və qısa müddət ərzində nömrə sifarişçiyə təqdim olunur.

Qeyd edək ki, saytda olan axtarış sistemi çox sadədir. İnternet səhifəyə daxil olanlar prefiksi seçdikdən sonra istədikləri nömrəyə uyğun olaraq, istənilən ən azı üç xananı doldurmaqla axtarış edə bilirlər. Axtarışın nəticəsi iki tərzdə – qiymətə və nömrələrin ardıcıllığına görə təqdim olunur. Axtarış nəticəsində sistemdə tapılan nömrələrin tam sayı yuxarıda qeyd edilir. Bu xidmətdən Azərbaycan ərazisində adı, soyadı və əlaqə nömrəsini sistemə daxil etmiş hər bir sifarişçi yararlana biləcək. Gələcəkdə www.narsim.az səhifəsinin əlavə funksiyalar vasitəsilə daha da mükəmməlləşdirilməsi gözlənilir.

# Azərbaycanda sürücülər cərimələri yeni üsulla ödəyə biləcəklər



**Azərbaycanda yol hərəkəti qaydalarının (YHQ) pozulmasına görə cərimələrin onlayn ödənişi xidməti tətbiq ediləcək. Layihə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun maliyyə dəstəyi ilə həyata keçirilir.**

Hazırda proqramı təşkil edən sistemin hazırlanması başa çatıb və veb-interfeysin yaradılmasının yekunlaşacağı gözlənilir. Sistem bir ay ərzində sınaq yoxlamasından keçəcək və ilin sonuna kimi tam işlək olacaq. Layihə çərçivəsində YHQ pozulmasına görə cərimələrin bank və kredit kartları, SMS, eləcə də ödəniş terminallarının vasitəsilə internetin köməyi ilə ödənilməsi inkanlarına baxılması nəzərdə tutulur. İnternet ödənişləri üçün terminal.az resursu yaradılıb və o, hazırda nümayiş rejimindədir.

Layihə rəhbərinin sözlərinə görə, saytda qeydiyyatdan keçərkən avtonəqliyyat vasitəsinin sahibi “şəxsi kabinet”ə giriş imkanı əldə edəcək. O, burada özünün YHQ pozuntusu, foto və videomateriallarla ətraflı tanış olacaq. Bundan başqa, cəriməni Daxili İşlər Nazirliyinin internet səhifəsində ödəmək də mümkün olacaq: "YHQ pozulması video-müşahidə kameraları tərəfindən qeydə alınacaq. Sürücünün YHQ pozması hadisə yeri göstərilməklə, fotoşəkillər və videomateriallar əlavə olunmaqla onun elektron ünvanına göndəriləcək. Sürücünün operativ şəkildə xəbərdar edilməsi üçün SMS-lə məlumat göndərilməsi də nəzərdə tutulur".

# Elektron dərslik portalı resurslarından indiyədək 5 mindən çox insan istifadə edib

**Elektron dərslik portalı resurslarından indiyədək 5 mindən çox insan istifadə edib ki, onların da yarıdan çoxu Bakıda yaşayanlardır. İstifadəçilərin 1000 nəfərə yaxını Azərbaycan dili dərsliyinə aid resursdan yararlanıb.**

Bu barədə Təhsil Nazirliyində (TN) keçirilən tədbirdə Təhsilin keyfiyyətinin qiymətləndirilməsi sektorunun müdiri Emin Əmrullayev məlumat verib. Sektor müdiri xatırladıb ki, hələlik Azərbaycan bölməsinin yalnız 6-cı sinif üzrə elektron dərslikləri portala yerləşdirilib. Yaxın zamanda VII sinif üzrə 10, II və III siniflər üzrə isə ayrı-ayrılıqda 5 elektron dərslik portalda yerləşdiriləcək.

Xaricdə təhsil və əcnəbi tələbələrlə iş sektorunun müdiri Həsən Həsənli isə 2014-2015-ci tədris ili üçün “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində keçirilən müsabiqə barədə məlumat verərək, prosesin yekunlaşdığını bildirib: “Yüksək rəqabət mühitində keçən seçim prosesində ötən illərə nisbətən fərqləndirici akademik göstəricilərə sahib olan tələbələrin sayı daha çox olub. Dövlət qurumlarının və ali təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə keçirilən müsahibələr nəticəsində dünyanın aparıcı ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanmış 572 tələbənin adı proqram təqaüdçüləri siyahısına daxil edilib.

Ümumilikdə, indiyədək proqram çərçivəsində 3183 tələbə xaricə oxumağa göndərilib”. Sektor müdiri bildirib ki, gələn il də azərbaycanlı gənclərin xaricdə təhsili “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”na əsasən həyata keçiriləcək. Lakin 2015-ci ildə Dövlət Proqramı başa çatdığı üçün hazırda Təhsil Nazirliyi tərəfindən 2015-2020-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə yeni Dövlət Proqramı hazırlanır.

# Sığortada “vahid pəncərə”- TƏKLİF

Azərbaycanda sığortalılara göstərilən xidmətin səviyyəsini artırmaq üçün “vahid pəncərə” prinsipininin tətbiqi təklif olunur. Bu barədə Azərbaycan Sığortaçılar Assosiasiyasının sədri Orxan Bayramov məlumat verib. Onun sözlərinə görə, məqsəd odur ki, sığorta müştəriləri sığorta məhsulunu aldıqları yerdən də onlara lazım olan xidməti tələb etsinlər.

Daha bir təklif isə sığorta sahəsinə aidiyyəti olan şəxslərin lisenziyalaşdırılması ilə bağlıdır.

# Bank olmayan kredit təşkilatı borcları onlayn ödəmək imkanı yaradan xidməti işə salıb

Azərbaycanın bank olmayan kredit təşkilatı “Merkuri” MMC “AzeriCard” prosessinq mərkəzi ilə birgə öz müştərilərinə kredit borclarını şirkətin rəsmi səhifəsi vasitəsi ilə onlayn ödəmə imkanı yaradan xidmətini təqdim edib.

Kredit borclarını ödəmək üçün “www.merkuri.az” səhifəsinə daxil olub “Onlayn kredit ödənişi” bölməsinə keçmək və tələb olunan məlumatı daxil etmək tələb olunur. Növbəti səhifələrdə kredit kart məlumatlarını qeyd etmək lazımdır. İstifadəçi sorğunun yerinə yetirilməsi barədə məlumatlandırılır.

Cari hesaba vəsaiti köçürəndən sonra hesaba bağlı kredit uzrə borc müəyyən edilib kredit cədvəlinə uyğun silinəcək, kredit borcu avtomatik olaraq cari hesabdan ödəniləcək.

www.e-gov.az

## 01.11.2014 – 30.11.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 143348 |
| 2 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 76381 |
| 3 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 54974 |
| 4 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 41623 |
| 5 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 35166 |
| 6 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 20346 |
| 7 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 18228 |
| 8 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 11275 |
| 9 | Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi | Elektron Hökumət Portalı | 10671 |
| 10 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Hökumət Portalı | 10316 |
| 11 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 9255 |
| 12 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 6688 |
| 13 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 4430 |
| 14 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4315 |
| 15 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3760 |
| 16 | Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3630 |
| 17 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3615 |
| 18 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 2534 |
| 19 | Portal üzərindən verilmiş arayışların yoxlanılması | Elektron Hökumət Portalı | 2457 |
| 20 | AzDataCom internet xidmətinə qoşulma üçün sifariş | RYTN | 2402 |

## 01.12.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 78 | 152 | 230 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.11.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 16616 | 4528 | 6392 | 27536 |

## 2014-cü ilin noyabr ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 45 | 195240 |
| 2 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 7 | 186471 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 70079 |
| 4 | Elektron Hökumət Portalı | 10 | 24246 |
| 5 | Əmlak Məsələləri Dövlət Komitəsi | 38 | 5167 |
| 6 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 14 | 3456 |
| 7 | Daxili İşlər Nazirliyi | 2 | 3031 |
| 8 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 6 | 2479 |
| 9 | Təhsil Nazirliyi | 1 | 1809 |
| 10 | Mərkəzi Seçki Komissiyası | 7 | 1225 |
| 11 | "AzərEnerji" ASC | 2 | 1154 |
| 12 | "Azərsu" ASC | 2 | 897 |
| 13 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 683 |
| 14 | Səhiyyə Nazirliyi | 20 | 671 |
| 15 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 584 |
| 16 | Dövlət Gömrük Komitəsi | 5 | 509 |
| 17 | Vergilər Nazirliyi | 6 | 509 |
| 18 | Ədliyyə Nazirliyi | 10 | 475 |
| 19 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 414 |
| 20 | Dövlət Statistika Komitəsi | 5 | 369 |
| 21 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 335 |
| 22 | Milli Arxiv İdarəsi | 2 | 320 |
| 23 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 205 |
| 24 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 134 |
| 25 | Nəqliyyat Nazirliyi | 4 | 130 |
| 26 | Fövqəladə Hallar Nazirliyi | 3 | 97 |
| 27 | Xarici İşlər Nazirliyi | 1 | 76 |
| 28 | Dövlət Miqrasiya Xidməti | 1 | 74 |
| 29 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 69 |
| 30 | Kənd Təsərrüfatı Nazirliyi | 16 | 68 |
| 31 | Baş Prokurorluq | 1 | 66 |
| 32 | Dövlət Sərhəd Xidməti | 2 | 66 |
| 33 | Müəllif Hüquqları Agentliyi | 5 | 56 |
| 34 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 13 | 51 |
| 35 | Energetika Nazirliyi | 6 | 45 |
| 36 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 44 |
| 37 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 42 |
| 38 | Dövlət Dəniz Administrasiyası | 11 | 41 |
| 39 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 10 | 41 |
| 40 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 38 |
| 41 | Gənclər və İdman Nazirliyi | 4 | 32 |
| 42 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 22 |
| 43 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 14 |
| | **CƏMİ** | **330** | **501534** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.12.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 12 | 18 | 15 | 14 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 7 | 11 | 5 |
| 7 | Vergilər Nazirliyi | 60 | 51 | 52 | 58 | 58 |
| 8 | Energetika Nazirliyi | 8 | 6 | 6 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 11 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 13 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 5 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 2 | 2 | 12 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 29 | 31 | 31 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 15 | 34 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 27 | 25 | 29 | 29 | 24 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 14 | 14 | 14 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 4 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 38 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 2 | 2 |
| 39 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 40 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 41 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 42 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **452** | **312** | **371** | **461** | **399** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | | | 2 | 2 | |
| 2 | "Azərsu" ASC" | | | 2 | 3 | |
| 3 | Azərenerji" ASC | | | 2 | 3 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | | | 6 | 9 | |
| 5 | Baş Prokurorluq | | | 1 | 1 | |
| 6 | "Elektron hökumət" portalı | | | 2 | | |
| | **CƏMİ:** | | | **15** | **18** | |
| | **YEKUN** | **452** | **312** | **386** | **479** | **399** |

# “Elektron hökumət” portalına daxil olanların sayı 1 067 420 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) “Elektron hökumət” portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin noyabr ayının 30-a qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 3,255,455 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 1,067,420 nəfər olub. Belə ki, 1,067,420 nəfər ümumən 3,255,455 dəfə portala baxıb və 6,116,306 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 13,090,954 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 36 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 32.9%-ni yeni istifadəçilər, 67.1%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün noyabr ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 295,511 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 95,426 nəfər olub. Həmin şəxslər 1,201,418 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 501,534 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 27 saniyə təşkil edib. Noyabr ayı ərzində portala müraciət edənlərin 21.7%-ni yeni istifadəçilər, 78.3%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 141,397-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 386 olub.




© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az